# Olmaz, unutmaq olmaz...

Düşüncələr



***Unudulmaz kəhərlərdən roman yazırıq***
***Adamlarsa unudulur holavar kimi....***

*Bəzən olur ki, bir cüt misra adamın əlindən tutub onu uzaq keçmişə aparır. "Adamlar da unudulur" adlı şeiri ömrümü hansı vədəsində yazdığımı xatırlamıram. Təzədən oxuyanda elə bil yuxudan ayıldım, doğrudan, adamlar niyə unudulur? İnsan ömrü uzun bir yoldur. Heç kəs bu yola təkbaşına səfərə çıxmır. Yolboyu bizimlə yüzlərlə-minlərlə dost-tanış, doğmalar-ögeylər yol yoldaşlığı edir. Bir dəfə demişdim ki, hərdən əzab-əziyyətlə tikdiyimiz evin üstünə çıxıb oradan keçdiyimiz yola, yaşadığımız ömürə baxaq. Baxa bilsək, salam verib salam aldığımız, xeyrinə-şərinə yaradığımız, pisliyinə-yaxşılığına düçar olduğumuz, ömrün hansı pilləsindəsə unutduğumuz adamları xatırlayacaq və təbii ki, unutduqlarımız üçün peşmanlıq hissi keçirəcəyik. Ən pisi odur ki, ömrün ahıl çağında daha nə fiziki, nə də başqa imkan yoxdur ki, qapı-qapı düşüb unudulanları axtarasan, üzrxahlıq edəsən. Unudulmaq bəlalarına nə qədər rast gəlmişik.*

Bəlkə naqolay vəziyyətdən çıxış yolunu, daha dəqiq desək, təsəllini baxdığımız filmlərdə, oxuduğumuz əsərlərdə axtaraq. Elə isə birgə xatırlayaq. Yuri Bondarev adlı rus yazıçısının "Bizi bağışlayın" adlı hekayəsini hansısa jurnaldan oxumuşdum. Sonra Rasim Ocaqov həmin hekayənin ssenarisinə film çəkdi. Filmin sadə bir süjeti var: Vilayətdə məşhur yazıçı kimi tanınan Cahangir qatarla Moskvaya gedir, hələ mənzilə çatmağa xeyli var. Qatar Cahangirin doğulub-böyüdüyü şəhərin stansiyasına çatanda yazıçı qatardan düşür. Məqsədi doğma şəhərdə unutduğu adamları tapıb onları ziyarət etmək olur. Bir neçə adamla görüşəndən sonra ona bir vaxtlar dərs demiş, indi ahıl çağlarını yaşayan müəllimi Mariya Petrovnanın evinə gəlir. Baş rolun ifaçısı Xalq artisti Həsən Məmmədovun bu görüşdə keçirdiyi hisslər tamaşaçıya son dərəcə təbii təsir bağışlayır. Cahangir ömrünün yaşlı çağlarını yaşayan müəllimdən üzr istəyir, xatirələr vərəqlənir. Söhbət əsnasında aydın olur ki, Mariya Petrovnanı keçmiş şagirdlərindən bir nəfər neftçi fəhlə istisna olmaqla indiyə qədər axtaran olmayıb. Cahangirin gözü kitab dolabında öz kitabına sataşanda müəllimini indiyə qədər axtarmadığı üçün, sözün əsl mənasında, pərtlik hissi keçirir. Bu, əsas deyil. Mariya Petrovna keçmiş şagirdinin kitabına təbrik məktubu yazdığını, lakin Cahangirdən cavab almadığını bildirir. Yazıçı xatırlayır: kitab təzə nəşr olunanda şadyanalıq keçirilir, rəqs zamanı həyat yoldaşı Cahangirə onun keçmiş müəlliminin təbrik məktubu göndərdiyi xəbərini verəndə başı dumanlanmış yazıçı xəbərə əhəmiyyət vermir. Müəlliminin hüzurunda buraxdığı səhvi xatırlayıb bir daha peşman halda üzr istəyir, bağışlanmasını xahiş edir, lakin artıq gecdir.

Dahi yazıçı Çingiz Aytmatovun da "İlk müəllimim" adlı povesti var, şagird olanda oxumuşam. Gərgin süjetə malik maraqlı əsərdir. Qısa məzmunu belədir ki, vilayətin fəxri, akademik Altınay Süleymanova ilə doğma aulda görüş keçirilir. Məktəbin səhnəsinə vilayət rəhbərləri, adlı-sanlı adamlar toplaşıblar. Çıxışlar bir-birini əvəz edir, akademikin şəninə təriflər söylənilir. Tədbirin gedişində qoca poçtalyon atla çaparaq gəlib təbrik teleqramlarını sədarətə verir, tez də geri dönür. Növbəti gəlişlərin birində akademikin gözü poçtalyona sataşır və onun kim olduğu ilə maraqlanır. Yanındakı vəzifəli şəxs "heç, bizim qoca Dyuşendi, baş barmağını gicgahına aparıb istehza ilə "bir az başı oynayıb", - deyir. Aldığı xəbərdən akademik sanki cərəyan keçirir. "Aman Allah, bu həmin Dyuşendir?".

Bu həmin Dyuşen imiş. Müharibənin ağır illərində aulun uçuq-sökük məktəbində min bir əzabla Altınaygilə dərs deyən, müharibədən şikəst olub tərxis olunmuş müəllim... Çətin günlər idi. Müəllimdən dərsləri saxlayıb şagirdləri təsərrüfatda işləməyə göndərməyi tələb edirdilər. Dyuşen Altınayın dərsə marağını görüb onu bütün bəlalardan hifz etməyə çalışır, bunun müqabilində təhqirlərə məruz qalırdı. Hətta qızcığazı qırğızların o vaxtkı adətlərinə rəğmən başqa bir adama satırlar. Dyuşen bütün mərhumiyyətlərə, qan-qadaya baxmayıb Altınayı qorxulu dağ yolları ilə kürəyinə alıb əsirlikdən qaçırır.

Akademik indicə Dyuşeni tanımadığından, onu illər uzunu axtarıb tapmadığından, öz xilaskarını unutduğundan pərtlik hissi keçirir. Altınay olanları xatırlayır: "Niyə insanların izi xatirəsi əziz olan yerlərdə əbədi qalmır? Əgər mən Dyuşenlə dağdan qayıdarkən yeridiyimiz cığırı tapa bilsəydim dizlərimi yerə vurub müəllimin ayaq izlərini öpərdim. O cığır mənim yollarımın başlanğıcı, həyata, özümə qayıdışım oldu"... Bəli, yenə də artıq gecdir.

Rüstəm İbrahimbəyovun "Ad günü" hekayəsində aparıcı obraz Əli kimdir, adi fəhlə. Məhəllədə bir yerdə böyüdüyü, uşaqlıq illərini birgə keçirdiyi dostları adlı-sanlı, pullu-imkanlı, vəzifə-səlahiyyət sahibləridir. Lakin onların heç birində Əlidə olan unudulmamaq, yaddan çıxmamaq və bu məqsədlə çaba göstərmək həvəsi yoxdur. Əli uşağının ad gününü əlverişli imkan hesab edib "məhlə uşaqlarını" evinə dəvət edir. Əlini narahat edən ürəyinə hakim kəsilmiş insani hisslər, müqəddəs istəkdir. Əli istəyir ki, ömrün ən maraqlı çağları - uşaqlıq illəri, o illərin sevinci-kədəri unudulmasın, əksinə, evində böyüyən balacaya unudulmamaq kimi bir nemətin olduğuna inam yaratsın. Qonaqlığın təşkilində yorulub əldən düşən ev sahibi Əli ürəyindəkiləri "savadlı", "elmi" dildə keçmiş yaşıdlarına izhar edə bilməyib yuxuya gedir. Bu yuxu sanki insan ürəyindəki səmimi hisslərin zamanın-dövranın gərdişi ilə uzlaşmamaq təəssüratı yaradır.

Bəli, unudulmaq və unutmaq böyük bəladır. Sonradan özümüzə gəlib unudulanları vaxtında axtarmadığımıza haqq qazandırmaq istəyirik. Ailə qayğıları, imkansızlıq, vaxt problemi, digər bəhanələr gətiririk. Amma belə deyil. İnsan xarakterində qanıistilik, təəssübkeşlik, canıyananlıq kimi saysız-hesabsız gözəl hisslər var, kimdəsə işə yarayır, kimdəsə yaramır.

Orta məktəbdə məndən iki sinif aşağıda oxuyan son dərəcə gözəl səsli Rəşid adlı bir oğlan var idi. Hamıdan da çox mən inanırdım ki, Rəşid bu səslə nə vaxtsa əla müğənni olacaq. Amma yeniyetmə oğlanın ailə sarıdan bəxti gətirməmişdi. Himayəsində yaşadığı ögey qardaşı Rəşidə qarşı bir elə doğmalıq göstərmirdi. Rəşid ürəyini mənə açır, məktəbi qurtaran kimi musiqi texnikumuna qəbul olunacağını deyirdi. Arxayın edirdim ki, elə belə də olacaq. Təəssüf ki, belə olmadı. Rəşidin müğənni kimi adı heç yerdə çəkilmədi. Lap elə bu yaxınlarda öyrəndim ki, Rəşid orta məktəbdən sonra Sumqayıta köçüb, ailə qurub, iş-güc, dolanışıq qayğıları ona səsinin ardınca düşməyə imkan verməyib. Bu yaxınlarda dünyasını dəyişib.

Sözün əsl mənasında, dərin təəssüf hissi keçirdim. Mənə uşaqlıq illərində yaxınlığı, böyük qardaş sevgisi bəsləyən Rəşidi axtarıb tapmağa kim mane olurdu? Heç kim. Yalnız və yalnız unutmaq bəlası...

Kəndin girəcəyində Narınc xalanın balaca, yöndəmsiz evi var idi. Gözünün ağı-qarası qızı ilə bu evdə kasıb ömür sürürdü. Qızı ailə qurandan sonra Narınc xala tək yaşayırdı. Hərdən yadıma salır, kəndə gedəndə mütləq Narınc xalaya baş çəkəcəyimə, hətta uşaqlıqdan arzusunda olduğum maddi köməklik göstərəcəyimə söz verirdim. Amma kəndə gedir və Narınc xalanın evinin yanından keçəndə özümə verdiyim vədlər nədənsə yadımdan çıxırdı. Növbəti dəfə yenə kəndə yolum düşdü. Bu dəfə qarının evinə baş çəkmək xatirimdə idi. Kəndin girəcəyində gözümə inanmadım. Narınc xala dünyasını dəyişəndən sonra onun evini söküb yerində kimsə başqa ikimərtəbəli ev tikmişdi.

Bütün bunlar barədə bu qədər. Qeydlərimi özüm üçün trend hesab etdiyim bir mahnının sözləri ilə bitirmək istəyirəm. Musiqi mütəxəssislərinin fikrini bilmirəm, amma müharibədə şəhid olmuş övladlarımıza həsr olunan son dərəcə gözəl mahnı "Olmaz, unutmaq olmaz" adlanır.

***Bu tökülən qanları olmaz, unutmaq olmaz,***
***Şirləri, aslanları olmaz, unutmaq olmaz,***
***Candan əziz canları olmaz, unutmaq olmaz.***
***And yerimizdi bizim, gündə getsək də azdı***
***Fəxri xiyabanları olmaz, unutmaq olmaz...***

Şəhid canları, onların uyuduğu xiyabanları unutmamaq artıq bizlər üçün insani hiss, arzu, istək yox, əbədi borc, müqəddəs vəzifədir.

**Tofiq HÜSEYN,**
**"Respublika".**